# “Qarabağ dərdi - erməni vandalizmi”




Yazıçı-publisist Camal Zeynaloğlunun bu günlərdə daha bir kitabı - sayca on ikinci kitabı “UniPrint” nəşriyyatı tərəfindən işıq üzü görüb.

Kitab iki hissədən ibarətdir. Kitabın birinci hissəsində müəllifin Qarabağ savaşına həsr olunmuş sənədli povesti, hekayələri və məqalələri yer alıb. İkinci hissədə isə o, əsir və girov götürülmüş soydaşlarımızla şəxsən görüşüb söhbət etməsini, onların erməni əsirliyində başlarına gətirilmiş qeyri-insani hərəkətləri, görünməmiş işgəncələri, müsibətləri, erməni vandalizminin canlı şahidlərini dinləyib ürək ağrısı ilə qələmə alıb. Müəllif kitabda ayrı-ayrı tanınmış yazarların Qarabağ haqqındakı məqalələrini, eləcə də Dağlıq Qarabağın tarixi, əsrin faciəsi olan Xocalı soyqırımına dair tarixi həqiqətləri, faktları toplayaraq oxucularına daha geniş məlumat verməyə çalışıb.

Kitabda ermənilərin vəhşiliklərini öz gözləri ilə görmüş soydaşlarımızın və Xocalı şahidlərinin ifadələri və qandondurucu şəkilləri verilib. Müəllif eyni zamanda bəzi mənbələrə istinad edərək Birinci Dünya müharibəsi dövründə erməniləri hər vasitə ilə himayə və müdafiə edən rusların onları türklərə qarşı necə silahlandırmasından, törətdikləri kütləvi qırğından, terrordan, erməni vandalizmindən söhbət açır və dünyadakı erməni terror təşkilatlarının adlarını açıqlayır. Erməni terrorçularının 1973-1987-ci illərdə bütün dünyada törətdikləri terror əməliyyatlarının xronoloji icmalını verir. C.Zeynaloğlu oxucularına həm də azərbaycanlılara qarşı erməni terroru haqqında da geniş məlumat verir.

Müəllif kitabda həmçinin soydaşlarımızın 1948-1953-cü illərdə Ermənistandan deportasiyaya necə məruz qaldıqlarını və azərbaycanlılara qarşı iki əsr davam edən soyqırımlar barədə, beynəlxalq hüquq normalarına görə və insanlığa qarşı cinayət hesab olunan Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdıran tarixi sənədləri və müraciətləri verib.

Kitab bugünün və gələcəyimizin gəncləri üçün, eləcə də tariximizin qan yaddaşıdır.

**Arzu ƏLİYEVA.**